UOT: 338.45; JEL: L19; L66.

*İlqar Vaqif oğlu SADIQOV*
*iqtisad üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti, müəllim*
*E-mail: sadigov.ilgar1975@gmail.com*
*10.30546/4.71.2023.64*

# AZƏRBAYCANDA QİDA SƏNAYESİNİN MÜASİR İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – məqalədə qida sənayesinin müasir inkişaf xüsusiyyətləri araşdırılır, bu sahənin inkişafı ilə bağlı mövcud vəziyyət qiymətləndirilir. Qida sənayesinin əsas inkişaf problemləri göstərilməklə, onların həlli baxımından müəllif tərəfindən əhəmiyyət kəsb edən təkliflər irəli sürülür.

**Tədqiqatın metodologiyası** – məqalənin hazırlanmasında qida sənayesinin inkişafı ilə bağlı yerli və xarici təcrübənin ümumiləşdirilməsi, iqtisadi və müqayisəli təhlil, nəticə qiymətləndirilmələri kimi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəticələri** – qida sənayesinin inkişafı ilə bağlı tədqiqatların və icmalların hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalə mövzu üzrə müasir problemlərin araşdırılması istiqamətində hazırlanmışdır. Araşdırma problemlərə müasir və orijinal yanaşması baxımından seçilir. İrəli sürlüən təkliflər müəllifin elmi və praktik əsaslandırılmasının nəticələri kimi təqdim olunur. Məqalədə qida sənayesi ilə bağlı daxili və xarici bazarlarda istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması, istehsal fəaliyyətində müasir texnologiyaların tətbiqi öz vacibliliyi ilə əks edilir. Göstərilir ki, bu sahədə investisiya qoyuluşları sırf daxili mənbələr üzrə həyata keçirilsə də, lakin bu yatırımların həcmi sahənin inkişafı baxımından yetərli hesab olunmur.

***Açar sözlər: qida sənayesi, ərzaq məhsulları, iqtisadi islahatlar, aqrar sektor, emal sənayesi.***

## *Giriş*

Müasir qloballaşma prosesləri yeni sənaye sahələrinin inkişafını zərurətə çevirdiyi kimi, qida-yeyinti sənayesinin inkişafına da ciddi ehtiyac olduğunu sübut etməkdədir. Xüsusilə son dövrlərdə baş verən regional və beynəlxalq geosiyasi gərginliklər və konfliktlər insanların qida tələblərinin ödənilməsi ilə bağlı tarazlığın pozulmasına səbəb olmaqdadır. Son dövrlərdə beynəlxalq sammitlərdə, əsasən də Birləşmiş Millətlər Təşkilatının müxtəlif səviyyəli tədbirlərində insanların vacib və gündəlik istifadə etdiyi ərzaq məhsulları ilə təmin olunma məsələləri əsas müzakirə mövzusuna çevrilmişdir [9]. Azərbaycanda da qida sənayesinin inkişafı iqtisadiyyatın əsas istiqamətlərindən biri hesab olunmaqdadır. Son dövrlərdə ərzaq təhlükəsizliyinin gücləndirilməsi, əhalinin vacib qida məhsulları ilə davamlı təminatı, ölkədə bu sahədə zəruri ehtiyatların yaradılması qida sənayesinin inkişafını daha da aktuallaşdırır. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın əsas istiqamətlərindən biri də aqrar sektorun inkişafı və bununla bağlı qida sənayesinin fəaliyyət sahəsinin genişləndirilməsi ilə bağlıdır [3]. Qeyd etmək lazımdır ki, ölkəmizdə 2004-cü ildən başlayaraq həyata keçirilən regional proqramlarda bu istiqamətlilik xüsusilə diqqəti cəlb edir. Azərbaycanda qida sənayesinin inkişafında bu kimi vacib məqamlara diqqət artırılmaqdadır: təbii resurslardan səmərəli istifadənin təmini, innovativ inkişafa üstünlük verilməsi, ekoloji cəhətdən təmiz məhsulların istehsal edilməsi, qida sənaye məhsullarının ixrac potensialının artırılması [1; 2]. Beynəlxalq təcrübə göstərir ki, kənd təsərrüfatının emal sənayesi ilə birgə kompleks inkişafı öz vacibliliyi ilə çıxış etməlidir. Xüsusilə də daxili mənbələrə əsaslanmaqla inkişaf edən qida sənayesi ölkələrin həm ərzaq təhlükəsizliyinin təminatında, həm də yaşıl iqtisadiyyat quruculuğunda xüsusi aktuallıq kəsb etməkdədir. Eyni zamanda, qida sənayesinin iqtisadi inkişafda önəmli rolu, yeni iş yerlərinin yaradılmasına təsirləri, əhalinin sağlamlığının qorunmasında əhəmiyyəti bu sahəyə diqqətin artırılmasını bir daha ön plana çəkir. Qeyd edilən

bütün bu kimi vacib məqamlar tədqiqatın aktuallığını göstərməkdədir. Tədqiqatın əsas məqsədi ölkəmizdə qida sənayesinin müasir inkişaf səviyyəsini qiymətləndirmək, bu sahənin inkişafı ilə bağlı təkliflər irəli sürməkdir. Tədqiqatın əsas vəzifələri kimi qida sənayesinin təşkili xüsusiyyətlərini və inkişaf meyillərini qiymətləndirmək, bu sahənin problemlərini müəyyən etmək zəruri hesab olunmuşdur. Tədqiqatın metodologiyası olaraq qida sənayesinin inkişafı ilə bağlı hüquqi – metodoloji əsaslar, aparılan tədqiqatlar əsas götürülmüşdür. Tədqiqatın məhdudiyyətləri onunla bağlıdır ki, müvafiq sahə üzrə aparılan rəsmi və qeyri-rəsmi təhlil və qiymətləndirmələrdə fərqli münasibətlər mövcuddur. Həmçinin, qida sənayesinin inkişaf perspektivlərinin müəyyən olunması baxımından mövcud informasiya bazası kifayət qədər geniş deyildir. Tədqiqat ilə bağlı istifadə edilən informasiya bazası ölkəmizin rəsmi mənbələrinə, beynəlxalq təşkilatların tədqiqat və hesabatlarına əsaslanır.

**Müasir təcrübədə qida sənayesinin inkişafı**

Azərbaycanda qida sənayesinin inkişafı üçün əlverişli şərait və imkanlar mövcuddur. Bu mühüm sahənin inkişafı sovetlər dövründə də fərqlənmiş, mövcud potensiallar əsasında bu sahədə irəliləyişlərə nail olunmuşdur. Xüsusilə də qida – yeyinti sənayesinin inkişafında ulu öndər Heydər Əliyevin xüsusi rolu olmuşdur. H.Əliyevin rəhbərliyi dövründə, hələ 1970-ci illərdən başlayaraq ölkəmizdə qida-yeyinti sənayesinin təşkili təkmilləşdirilmiş, kənd təsərrüfatı ilə yeyinti sənayesi arasında istehsal əlaqələri genişləndirilmişdir. Ölkəmizdə tikilən çörək və un məmulatları kombinatları, şirniyyat fabrikləri, minreal su və limonad zavodları daxili tələbatı ödəməklə yanaşı, həm də digər qonşu respublikalara da məhsul göndərilməsində fəal iştirak edirdi. Ulu öndərin ikinci dəfə xalqın istəyi ilə ölkədə hakimiyyətə qayıdışı nəticəsində bu sahənin inkişafı diqqətdən kənarda qalmamışdır. Belə ki, kənd təsərrüfatı və sənaye sahəsində aparılan islahatlar, özəlləşdirmə, digər bu kimi vacib tədbirlər qida - yeyinti sənayesinin müasir bazar prinsiplərinə uyğun təşkilində və inkişafında mühüm rol oynamışdır. Müasir dövrümüzdə qida sənayesinin inkişafının və bu sahədə istehsalın genişləndirilməsinin ölkəmiz üçün mühüm sosial-iqtisadi əhəmiyyəti vardır. Belə ki, bu baxış yalnız vətəndaşlarımızın qida - ərzaq məhsullarına olan tələbatını ödəməklə bitmir, həm də insanların yaşayış səviyyəsini qiymətləndirməyə də imkan verir. Qeyd edilməlidir ki, müasir dünyada belə bir vəziyyət yaranmaqdadır [10]:

- ✓ bir tərəfdən, üçüncü və digər ölkələrdə aclıq içində yaşayan çoxsaylı insanların sayı davamlı olaraq artır;
- ✓ digər tərəfdən, inkişaf etmiş ölkələrdə (dünya əhalisinin 15%-dən çoxunun yaşadığı) qida istehsalının profisiti yaranır.

Hazırkı dövrdə əhalisini öz istehsal etdikləri ərzaq məhsulları ilə təmin etmək imkanları olmayan əksər üçüncü dünya ölkələri və inkişaf etməkdə olan dövlətlər bu məhsulların idxalına üstünlük verməkdədir. Artıq bir çox Qərb ölkələri də əksər ərzaq məhsullarının idxalına diqqəti artırmaqdadır. Qida - ərzaq məhsulları müasir dövrdə strateji məhsullar kimi də dəyərləndirilir, ölkələrin bu sahədəki təhlükəsizliyinin təmini baxımından xüsusi əhəmiyyət kəsb edir. Bütün bu kimi amillər bir daha göstərir ki, qida istehsalı ölkələlərin iqtisadi vəziyyətinin bir növ göstəricisinə çevrilir [6; 9].

Qida sənayesinin inkişafının özünəməxsus xüsusiyyətləri mövcuddur. Bu sahənin inkişafı onun istehsal strukturlarının və məhsullarının çeşidlərinin müxtəlifliyi, bu sahədə fəaliyyət göstərən müəssisələrin region və bölgələr üzrə yerləşmə səviyyəsi və xammal-material təchizatı ilə birbaşa bağlıdır [6]. Eyni zamanda, bu sənayenin inkişafında iqlim amilləri də mühüm rol oynayır. Əksər ölkələrdə qida sənayesi emal sahələrinin aparıcı isitqaməti kimi də diqqəti cəlb etməkdədir. Qida sənayesinin təşkili və inkişafının əsas spesifik xüsusiyyəti - coğrafi amillər, məhsulların keyfiyyəti və istehlakçı məmnunluğu ilə də bağlıdır. Azərbaycanda bu sahə aqrar-ərzaq bazarının formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən, ölkəmizin iqtisadi və ərzaq təhlükəsizliyinin təmin olunmasında o yaxından iştirak etməklə, həm də iqtisadi mexanizmin bir hissəsinə çevrilir, xarici ölkələrlə ticarət münasibətlərinin dərinləşməsinə təsir göstərir. Müasir qida istehsalı mürəkkəb bir quruluşa malik olmaqla, kənd təsərrüfatının əksər sahələri ilə birlikdə

aqrosənaye kompleksini yaradır. Ölkəmizdə təşkil edilən sənaye və aqroparkların əsas təyinatlarından biri də məhz qida sənayesinin inkişafına yönəlməklə, bu sahənin ixrac potensiallarının artırılması məqsədlərini güdür.

Azərbaycanda ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi yerli qida istehsal sahələrinin inkişafını da əsaslandırır. Qeyd etmək lazımdır ki, əhalinin mənşəyi məlum və keyfiyyətli ərzaq məhsulları ilə davamlı təmin edilməsi zərurətinin artması aqrar sektorun inkişafı üçün yeni imkanlar yaratmaqdadır. Həmçinin, ölkəmizdə balıq təsərrüfatının inkişafı üçün də mövcud potensialların qiymətləndirilməsinə ehtiyac vardır. Belə yanaşma ölkədə qəbul edilən bir sıra proqram və strateji sənədlərdə də öz əksini tapır [2; 3]. Qida məhsullarının keyfiyyətinin yüksək olması ölkədə əsas tələblərdən biri kimi müəyyən edilmişdir. Belə ki, ölkəyə gətirilən qida-ərzaq məhsullarının keyfiyyətinə olan tələblər artdığı kimi, yerli məhsullara da bu baxımdan yanaşma dəyişməkdədir. Ölkə əhalisinin fizioloji ehtiyaclarını ödəməli olan qida məhsulları və onların keyfiyyət tələbləri, insanların sağlamlığının əsas təmiatçılarından birinə çevrilməlidir. Bu baxımdan, belə məhsulların istehsalı, saxlanması, daşınması və satış prosesi üzrə də müvafiq hüquqi və texnoloji tələblərin müəyyən olunması hər bir ölkədə əsas götürülür. Qida sənayesinin istehsal prosesində əsas xammal ilə yanaşı, qida əlavələri, ədviyyat və digər zəruri komponentlər istifadə olunmaqdadır ki, onlar da məhsulun keyfiyyəti, istehlakçı məmnunluğunun təmini və saxlanması ilə bağlı zəruri standartların bu sənayedə tətbiqini əsaslandırır. Azərbaycanda qida təhlükəsizliyi və istehlakçı bazarında sağlam münasibətlərin yaradılması baxımından həyata keçirilən islahatları hələ tam əhatəli qəbul etmək olmaz. Qeyd etmək lazımdır ki, bu sənaye sahəsinin inkişafı ilə bağlı keyfiyyət tələblərinin artırılmasına, zəruri metodoloji baza və satndartların qəbuluna ehtiyac artmaqdadır. Belə baxışı ölkəyə gətirilən və ölkədə istehsal olunan bir sıra məhsulların keyfiyyəti və mənşəyi ilə bağlı problemlər də irəli sürməyə əsas verir.

Müasir dünyada qida sənayesinin məhsullarına olan tələbat artmaqdadır və insanların istehlak tələblərinin dəyişməsi də bu amili sübut edir. Əksər ölkələrdə qida sənaye sahələri iqtisadiyyatın aparıcı və ayrılmaz hissəsinə çevrilməklə, böyüməkdədir. Qida sənayesinin xüsusiyyətlərini nəzərə alsaq göstərmək olar ki, dünya ölkələri üzrə bu sahənin inkişafında bir sıra fərqli meyillər müşahidə edilir. Müvafiq sənayenin inkişafında liderlik inkişaf etmiş ölkələrə aid olduğu halda, bu sahənin inkişaf səviyyəsinə görə inkişaf etməkdə olan bir sıra ölkələr də diqqəti cəlb edir. İqtisadiyyatı yenicə formalaşan keçid ölkələrdə bu sahənin inkişafı öz yüksək nəticələri ilə nəzərə çarpmır. Bu hal da təbii qiymətləndirilməlidir, çünki inkişaf etmiş ölkələr qida bazarında həm hegemon mövqeyə malikdir, həm də bu sahədə yeni texnologiyaların tətbiqi, investisiya qoyuluşları və idarəetmə standartlarının istifadəsi baxımından üstünlüyü ilə fərqlənir. Qeyd etmək lazımdır ki, qida sənayesinin inkişafı baxımından Cənub-Şərqi Asiya ölkələrində, Çində, o cümlədən də Türkiyədə artıq diqqəti cəlb edəcək dəyişikliklər müşahidə olunmaqdadır [10].

Avropa ölkələrində emal sənayesinin əsas tərkib hissəsi olmaqla qida sənayesi öz yüksək inkişaf səviyyəsi ilə diqqəti cəlb edir. Bu sahə həm gəlirlilik səviyyəsi, həm də rəqəmsal inkişaf cəhətdən digər sahələr ilə müqayisədə xeyli irəlidədir [7]. Qeyd edilməlidir ki, inkişaf etmiş ölkələrdə bu tip sahələrin bazar tənzimləmə mexanizmlərində stimullaşdırıcı alətlərdən geniş istifadə olunur ki, bu həm də aqrar sektorun əlaqəli inkişafına dəstək məqsədləri güdür [8]. ABŞ-da qida sənayesinin inkişafı daha yüksək səviyyəsi ilə fərqlənir və ölkə istehsalında yüksək xüsusi çəkiyə malikdir. Belə ki, ölkə üzrə ümumi sənaye məhsullarının xüsusi çəkisində qida sənayesinin payı - 15%-ə yaxındır, Digər tərəfdən, ölkədə və dünyada baş verən son böhran və tənəzzüllərə baxmayaraq qida sənayesinin fəaliyyətində ciddi problemlər və məhdudiyyətlər nəzərə çarpmamışdır. ABŞ qida səanyesinin əsas inkişaf etmiş sahələri kimi ət və ət məhsulları, süd məhsulları, alkoqollu və alkoqolsuz içkilər istehsalı, konserv məmulatları istehsalı daha çox fərqlənir [10]. İnkişafı sürətlənməkdə olan Çin sənayesinin strukturunda digər sahələr ilə yanaşı qida sənayesinin də əhəmiyyəti artmaqdadır. Bu sahənin əsas inkişaf mərkəzi kimi - ölkənin cənub-qərb hissəsi daha çox fərqlənir. Qeyd olunmalıdır ki, qida sənayesi Çində öz inkişafı ilə seçilir, həmçinin daxili bazarın böyüklüyü də bu sahənin fəaliyyətinin genişlənməsinə təsir etməkdədir. Ölkədə istehsal olunan bir

sıra qida məhsullarının yüksək keyfiyyəti (dəniz və balıq məhsulları, çay, meyvə və tərəvəz və s.) onların ixrac imkanlarının davamlı şəkildə artmasına səbəb olmaqdadır [10]. Yaponiyanın kiçik əraziyə malik olmasına baxmayaraq, ölkədə sənayenin bir qolu kimi qida sənayesinin inkişafında müsbət meyillər müşahidə olunur. Yaponiyada bu sənayenin inkişafının əsas üstünlüklərindən biri də bu sahədə müasir və innovativ texnologiyaların geniş tətbiqi ilə bağlıdır. Digər tərəfdən isə, ölkədə bu sənaye istehsal sahələri daha çox idxal olunan xammal əsasında fəaliyyət göstərməkdədir. Yaponiyanın qida sənayesində həm də ekoloji məhsullar istehsalına diqqət artırılır ki, bu amil də insanların üzvi qidalara və sağlam qidalanmaya tələbatının artması ilə bağlıdır [9]. Müasir təcrübə göstərir ki, inkişaf edən ölkələrdə qida sənayesi əsasən bütün növləri ilə mövcud olub, inkişaf edir. Qeyd etmək lazımdır ki, bu ölkələrin əksərində qida-ərzaq istehsalı üçün lazım olan xammalın böyük hissəsi idxal edilir. Bütün bunlara baxmayaraq, dünyada qida sənaye məhsullarına, xüsusilə də yüksək keyfiyyətli məhsul istehsalına görə inkişaf etmiş ölkələrin payı öz yüksək mövqeyi ilə seçilir.

**Azərbaycanda qida sənayesinin inkişaf səviyyəsi**

Azərbaycan qida sənayesinin inkişafı baxımından əlverişli imkanlara və potensiallara malik ölkələrdən hesab olunur. Bu sahə ənənəvi iqtisadiyyat sahəsi olmaqla uzunmüddətli inkişaf tarixi ilə də fərqlənir. Ölkədə aqrar sektorun inkişaf imkanları qida sənayesinin xammal təminatı baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir. Ölkədə qeyri-neft sektorunun əsas aparıcı sahələrindən biri kimi bu sahənin inkişafına diqqət artmaqdadır. Qeyd etmək lazımdır ki, ölkədə qeyri-neft sektorunun inkişafı və biznes mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər qida sənayesinin inkişafına da öz təsirlərini göstərmişdir. Belə ki, 2010-cı illə müqayisədə 2021-ci ildə qida sənayesində fəaliyyət göstərən müəssisələrin sayı 32% artmaqla 540 vahid təşkil etmişdir. Bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı ümumi sənayedə fəaliyyət göstərən müəssisələrin 15%-ni, emal sənayesindəki müəssisələrin isə 20%-ni təşkil edir [5].




***Qrafik 1. Qida sənayesində fəaliyyət göstərən müəssisələrin inkişaf dinamikası (vahid).***
*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/industry/ (02.03.2023).*

Azərbaycanda emal sənayesinin tərkibində qida sənayesinin inkişafı da xüsusilə seçilməkdədir. Qeyd etmək mümkündür ki, emal sənayesində məhsul istehsalının həcmi 2010-cu illə müqayisədə 2021-ci ildə 2,7 dəfə artmaqla 15,9 milyard manat təşkil etmişdir. Müqayisə edilən dövrdə qida sənayesində məhsul istehsalı isə 2,4 dəfə yüksəlməklə 4,5 milyard manata çatmışdır. Göstərmək lazımdır ki, 2010-cı ildə qida sənayesində istehsal edilən məhsulun ümumi sənaye məhsulunda xüsusi çəkisi 7,1%, emal sənayesində 33,3% təşkil etdiyi halda, 2021-ci ildə bu göstəricilər: 9,1% və 31,3% səviyyəsində olmuşdur. Təbii ki, qida sənayesi məhsullarına ölkədaxili və xarici tələbatı nəzərə alsaq bu göstəricilərin hələ qaneedici səviyyədə olmaması haqda fikir yürütmək olar [5].




***Qrafik 2. Qida sənayesində istehsal edilən məhsulun həcmi (milyard manat).***
*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/industry/ (02.03.2023).*

Ölkədə qida məhsul növləri üzrə istehsal artımında fərqliliklər müşahidə olunmaqdadır. Belə ki, bəzi məhsulların həcmində daha yüksək artım baş verməsi xüsusilə diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, 2015-ci illə müqayisədə 2021-ci ildə ölkədə istehsal edilən kolbasa məhsullarının həcmi 5,4 dəfə, süd məhsullarının 12 dəfə, meyvə mürəbbələri, konserv və şirə istehsalının 1,5 dəfə, un məhsulları üzrə şirniyyat istehsalının 1,3 dəfə artması nəzərə çarpmışdır. Həmçinin, müəyyən artım meyilləri bəzi məhsul növləri üzrə də müşahidə olunmuşdur [5]. Ölkəmizdə bəzi növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi yüksək deyildir. Belə ki, son illərin tədqiqatları göstərir ki, ölkədə təmizlənmiş düyü üzrə özünütəminetmə səviyyəsi 18%, sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları üzrə 77%, suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatları üzrə 39%, makaron məmulatları üzrə 47%, bitki yağları üzrə 73% təşkil edir. Həmçinin, digər qida sənayesi məhsulları üzrə də belə göstəricilər müəyyən fərqli mövqeləri ilə diqqəti cəlb etməkdədir [5].

Ölkəmizdə qida sənayesinin inkişafı əsaslı investisiya qoyuluşlarını aktuallaşdırmaqdadır. Bu sahənin rəqabətqabiliyyətli məhsul istehsalı müasir texnologiyaların tətbiqinin genişləndirilməsini əsaslandırır. Ölkədə qida sənayesi üzrə yatırılan investisiyaların həcmində artım tendensiyası müşahidə edilir. Belə ki, 2010-cu illə müqayisədə 2021-ci ildə bu sahədə əsas kapitala yönəldilən investisiyaların həcmi 7,3 dəfə artmaqla 198 milyon manat təşkil etmişdir. Qida sənayesində yatırılan investisiyalar emal sənaye sahələrində olduğu kimi daha çox daxili mənbələr hesabına həyata keçirilir [5].




**Qrafik 3. Qida sənayesində əsas kapitala yönəldilən investisiyaların səviyyəsi (milyon manat).**
*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/industry/ (02.03.2023).*

Ölkədə qida sənayesində əsas kapitala yönəldilən investisiyaların ümumi sənaye və emal sənayesindəki payı öz yüksəlişi ilə diqqəti cəlb edir. Belə ki, 2010-cu ildə ümumi sənayedə əsas kapitala yönəldilən investisiyaların xüsusi çəkisində qida sənayesinin payı 0,6%, emal sənayesində 5,3% təşkil etdiyi halda, 2021-ci ildə bu göstəricilər 2,6% və 9,8% səviyyəsində olmuşdur [5]. Bu sahə üzrə investisiya qoyuluşlarının artımının davamlı və iri həcmdə olması xüsusi zərurətdən çıxış edir. Azərbaycanda bir neçə xarici kapitallı qida – emal sənaye müəssisələri var ki, onların investisiya qoyuluşları daha yüksəkdir və bu yatırımlar yeni texnologiyaların tətbiqinə və innovasiya xərclərinə yönəlir. Ölkədə bir yerli qida müəssisəsinə düşən investisiyanın illik orta həcmi 300000 – 350000 manat arası dəyişir ki, bu vəsait də istehsalın müasir tələblər baxımından təşkili və inkişafı üçün yetərli hesab olunmur. Həmin sahədə həmçinin innovativ inkişaf xərclərini də yüksək qiymətləndirmək olmaz. Qida sənayesində məhsul və proses innovasiyalarına çəkilən xərclərin həcmi son on ildə 15,4 milyon manat təşkil etmişdir. Qeyd etmək lazımdır ki, həmin dövrdə qida sənayesində innovasiyalara çəkilən xərclər ümumi sənaye üzrə innovasiyalara çəkilən xərclərin 4,8%-ni təşkil etmişdir [5].

### *Nəticə*

Azərbaycanda emal sənayesinin əsas tərkib hissəsi kimi qida sənayesinin perspektiv inkişafı üçün də əlverişli zəmin vardır. Ölkədə qeyri-neft sektorunun əsas tərkib hissəsi kimi qida sənayesinin inkişafına dövlət dəstəyinin artırılması vacib hesab olunur. Xüsusilə də bu dəstək investisiya – kredit cəlbində stimullaşdırıcı alətlərin tətbiqi istiqamətində daha önəmli olar. Ölkə regionlarının mövcud imkanları və işğaldan azad olunan rayonların potensialları bu sahənin perspektiv inkişafına kifayət qədər təsir göstərə bilər. Qida sənayesinin inkişafı həm də aqrar sektorun kompleks inkişafını əsaslandırır. Ölkənin qida sənayesi üçün yerli xammallardan istifadə imkanlarının araşdırılması, bu iki sahə arasında qarşılıqlı fəaliyyət və idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri xüsusi əhəmiyyət kəsb edər. Qida sənayesinin inkişafı baxımından daxili və xairici satış bazarlarının genişləndirilməsi üzrə geniş və əsaslandırılmş marketinq tədqiqatların aparılması xüsusi zərurətdən irəli gəlir. Qeyd etmək lazımdır ki, yerli qida sənayesinin inkişafı istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsi ilə də bağlı olmalıdır. Belə ki, bu sahədə xarici məhsullarla rəqabət aparacaq milli məhsul brendinin yaradılması və onun reklamının geniş təşkili də məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. (2021). Bakı. https://e-qanun.az/framework/46813.
2. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”. (2022). Bakı. https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf.
3. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019). Bakı. http://www.e-qanun.az/framework/41320.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2023. https://www.stat.gov.az/source/industry/
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2023. https://www.stat.gov.az/source/food_balances/
6. Алтухов А.И. (2016). Необходимость актуализации доктрины продовольственной безопасности российской федерации // Экономика сельского хозяйства России. № 1. с. 2-11.
7. Воронцов Д.Г. (2015). Мировой опыт импортозамещения в сельском хозяйстве и пищевой промышленности // Научное обозрение. Серия 1: Экономика и право. № 1. с. 85-91.
8. Ревенко Л. (2015). Параметры и риски продовольственной безопасности // Международные процессы. Т. 13. № 2. с. 6-20.

9. The State of Food Security and Nutrition in the World (2021): Transforming food systems for food security, improved nutrition and affordable healthy diet for all. https://reliefweb.int/report/world/state-food-security-and-nutrition-world-2021-transforming-food-systems-food-security
10. World Food and Agriculture – Statistical Yearbook (2022).

***Илгар Вагиф оглы Садыков***
***доктор философии по экономике***
***Бакинский Государственный Университет, преподаватель***

## Особенности современного развития пищевой промышленности в Азербайджане

***Резюме***

**Цель исследования -** в статье рассматриваются особенности современного развития пищевой промышленности, оценивается сложившаяся ситуация с развитием данной отрасли. С указанием основных проблем развития пищевой промышленности автором выдвигаются предложения, имеющие важное значение с точки зрения их решения.

**Методология исследования -** при подготовке статьи использованы такие методы, как обобщение отечественного и зарубежного опыта развития пищевой промышленности, экономический и сравнительный анализ, оценка результатов.

**Результаты исследования -** могут быть использованы при подготовке исследований и обзоров развития пищевой промышленности.

**Оригинальность и научная новизна исследования** – статья разработана в направлении исследования современных проблем по теме. Исследование выделяется своим современным и оригинальным подходом к проблемам. Выдвинутые предложения представлены как результаты научно-практического обоснования автора. В статье отражена актуальность повышения конкурентоспособности выпускаемой на внутреннем и внешнем рынках продукции пищевой промышленности, внедрения современных технологий в производственную деятельность. Показано, что хотя инвестиции в эту сферу осуществляются исключительно из внутренних источников, но объем этих инвестиций не считается достаточным с точки зрения развития отрасли.

***Ключевые слова: пищевая промышленность, продукты питания, экономические реформы, аграрный сектор, перерабатывающая промышленность.***

***Ilgar Vagif Sadigov***
***doctor of philosophy in economics***
***Baku State University, teacher***
***E-mail: sadigov.ilgar1975@gmail.com***

## Features of the modern development of the food industry in Azerbaijan

***Summary***

**The purpose of the study** – the article examines the features of the modern development of the food industry, evaluates the current situation with the development of this area. With an indication of the main development problems of the food industry, proposals are put forward that are significant by the author in terms of their solution.

**Methodology of the research** - in the preparation of the article, methods such as generalization of domestic and foreign experience related to the development of the food industry, economic and comparative analysis, assessment of results were used.

**The results of the study** – can be used in the preparation of research and reviews on the development of the food industry.

**Originality and scientific novelty of the study** - the article was prepared in the direction of investigation of modern problems on the subject. The study stands out for its modern and original approach to problems. The proposed proposals are presented as the results of the scientific and practical

justification of the author. The article reflects the importance of increasing the competitiveness of products produced in the domestic and foreign markets related to the food industry, and the introduction of modern technologies in production activities. It is shown that although investments in this area are carried out exclusively on internal resources, the volume of these investments is not considered sufficient from the point of view of the development of the field.

***Key words: food industry, food products, economic reforms, agrarian sector, processing industry.***